Tarix və onun problemləri, №1-2 2009

**DİLARƏ HACIYEVA**
*Azərbaycan MEA Azərbaycan tarixi muzeyinin dissertantı*

# YAZILI MƏNBƏLƏR ALANLAR HAQQINDA

Alanlar haqqında yazılı mənbələrdə saxlanmış məlumatların tədqiqi onların mənşəyini, yayılma ərazisini, qonşu xalqlar və dövlətlərlə qarşılıqlı əlaqələrini öyrənmək üçün böyük əhəmiyyətə malikdir.

Bu tayfalar haqqında qədim yazılı mənbələrdə xeyli məlumatlara rast gəlinir. Müxtəlif dillərdə saxlanmış və həmçinin pərakəndə halda olan bu yazılı mənbə məlumatlarını ümumiləşdirmək və tənqidi təhlil süzgəncindən keçirməklə mühüm nəticələr əldə etmək mümkündür. Məqsədimiz Qafqaz alanlarına, xüsusilə Cənubi Qafqazda yayılmış alanlara dair yazılı abidələri kompleks şəkildə diqqətə çatdırmaqdır.

Tədqiqat üçün maraqlı məsələlərdən biri uzun müddət elmi mübahisələrin predmeti olmuş alanların meydana çıxması dövrü və onların hərəkət istiqamətlərinin müəyyənləşdirilməsi məsələsidir. Bu mövzuda fikir müxtəlifliyi isə Roma tarixçisi Dion Kassiy Kokkeianın məlumatlarının müxtəlif cür şərh olunması, daha dəqiqi isə müxtəlif cür tərcümə edilməsi nəticəsində yaranmışdır. S.M.Perevalov Dion Kassiyin əsərinin bərpa olunmuş ümumi toplusuna istinad edərək belə bir fikir irəli sürmüşdür: «...Başqa bir müharibə Farsman tərəfindən albanların (torpaqlarında) ... (müharibə) Midiyanı möhkəm sarsıtdı, Kappadokiyaya da toxundu və ona görə qurtardı ki, albanlar bir tərəfdən Voloqezin hədiyyələri ilə ələ alındılar, digər tərəfdən isə Kappadokiya hökmdarı Flaviy Arriandan qorxurdular» (20). Dion Kassiy Kokkeian yazdıqlarının bu formada oxunuşu alan ordusunun hərəkət istiqaməti məsələsində heç bir şübhə yeri qoymur (24).

M.Xorenli alanların yerləşdiyi ərazini konkret olaraq belə lokallaşdırır: «Əsirlərin gətirildiyi torpaq bu vaxta qədər Artaz adlanırdı». M.Xorenli dövrünün müəllifləri Artaz/Ardozu Şimali Qafqazın alan tayfalarının əzəli ərazisi hesab edirdilər (17, s.120-121). V.F.Miller Ardozu Vladiqafqaz düzənliyi ilə eyniləşdirir (15, s.109-116). A.B. Qadlonun dəqiqləşdirməsinə görə «Qafqaz dağlarının ardozu» («ardoz» düzənlik, tala mənasındadır) – Terek vasitəsilə suvarılan döngədən Sunci çayının aşağı axarı boyu şimali-şərqə qədər uzanan düzənlik ərazidən ibarətdir (8, s.164-165).

Orta əsr tarixçisi M.Kalankatuklu bildirir ki, Sasani şahı Firuz Alan qapıları yaxınlığında haylandur tayfaları ilə danışıqlar apararaq onları müharibəyə cəlb etdi və onların köməyi ilə uzun müddət Albaniyanı gərgin vəziyyətdə saxladı. Albaniya böyük itkilərə və məhrumiyyətlərə məruz qaldı. Alban dövləti müstəqilliyini itirdi. Ancaq Firuzun Vaçeyə qarşı apardığı müharibə beş il - 463-cü ildən onun (Firuzun) öldürülməsinədək davam etdi (16, k.1, f.21).

Ərəb coğrafiyaşünası İbn Rusta isə sadəcə olaraq qeyd edir ki, «Kür çayı Alanlar ölkəsindən axır, Tiflis və Bərdənin yanından keçir, Təbəristan dənizinə tökülür» (21, s.35).

Yazılı mənbələrin alanların Albaniya istiqamətindəki yürüşləri barədə məlumatı mühüm arqument kimi böyük rol oynayır. Burada Kappadokiya hökumdarı Arrian Flaviyin alanların onu sıxışdırması, bunun nəticəsində Cənubi Qafqazdan Kaspi qapılarına gedib çıxması barədə fikirləri dəqiqləşdirilir (7).

X əsr ərəb coğrafiyaşünası Məsudi Alaniyanın siyasi və hərbi qüdrətini xarakterizə edərək bildirir ki, alan çarı «qüdrətlidir, cəsurdur, çox güclüdür və çarlar arasında siyasət aparır», «yürüşə 30 min atlı ilə gedir» (13, s.29-78).

Yazılı mənbədə XI əsrin ortalarında alanların iki dəfə Azərbaycan ərazilərinə hücum edərək şəhər və kəndləri qarət etməsi və saysız-hesabsız əsir aparması barədə məlumat verir (6).

Tədqiqat üçün maraqlı məsələlərdən biri də alan termininin etimologiysı və bəzi digər ifadələrin araşdırılmasıdır. «Alanlar» etnoniminin etimologiyasına «arya» termininin ekvavalenti kimi baxılır ki, bu da yəqin yeni tayfa birliyinin özünəməxsus milli ideyasına xidmət edən qədim hind-İran tayfalarının ümumi adlandırılması ilə uyğun gəlir.

Alan termininin özünəməxsusluğu ondan ibarətdir ki, bu ifadə «döyüşdə yüksək ləyaqətli» kimi başa düşülən «xsar» sözündəndir (12, s.224-225). Başqa sözlə, Aşxadar antroponimi «yüksək hərbi rəşadətə malik olan», hərbi rəhbər (bahadır) kimi ehtimal edilən istilahdır. Qeyd etmək lazımdır ki, osetinlərin nəsillərinin adları, demək olar, «danışan» adlardan ibarət olması barədə məlumat verilir. Onların böyük bir hissəsinin elmdə öz təsdiqini tapdığı, yəni məişətin müxtəlif tərəflərini və ətraf mühiti əks etdirdiyi dəqiqləşdirilmişdir (12, s. 243). Bu nöqteyi-nəzərdən Aşxadar və Aşxenin alan (hərbi) aristokratiyasının yüksək təbəqəsinə məxsusluğu ehtimal olunur (9). Qeyd etmək lazımdır ki, bir sıra antroponimlərin daşıyıcılarının yaşadıqları dövrü nəzərə alaraq onların ad anlayışlarında düzəlişlər etməklə alanlara dair bir sıra ifadələrdə dəqiqləşdirmələr aparılmışdır. Aşxadar adının etimologiyasının araşdırılması nəticəsində sözün bir hissəsinin qədim fars dilində olan «xsathra» adı ilə uyğun gəldiyi bildirilir (11, s.234). Bəzi tədqiqatlarda aşxen «xanım» kimi şərh olunmuşdur (2, s.236). F.Qutnov isə C.Dümezilin üçfunksiyalı konsepsiyasından çıxış edərək, ikinci termininin hərbi funksiya ilə bağlı olması və dövlətin yaranması dövrünə qədər «hərbi qüvvə», «hərbi rəşadət» mənasını verməsi ilə razılaşır. V.İ.Abayevə görə, «bu semantika osetin dilində üstünlük təşkil edir» (2).

Bizim eranın ilk əsrlərində baş verənlərin təsvirində alan (ovs) «çarları» barədə qədim dövrün gürcü tarixçiləri də məlumat verirlər. Xüsusilə, Leonti Mroveli I Amazaspın (242-272-ci illər) hakimiyyəti barədə bölmədə ovs «çarı»nın yürüşü haqqında məlumat verir (1, s. 35-36).

F.Qutnov hesab edir ki, Armaz kitabələri aşkar olunanadək belə hesab edirdilər ki, pitiaxş institutu «sırf farslara aiddir», Gürcüstanda o ancaq IV-V əsrlərin hüdudlarında meydana çıxmışdır (11). Lakin Armaz kitabələri qədim Gürcüstanda pitiaxşların olmasını əyani şəkildə göstərmişdir. Hətta onlardan biri – Zevax - «balaca» və yaxud «kiçik» pitiaxş adlandırılmışdır (25, s.52-54).

«Pitiaxş»ın etimologiyasını yunan mənbələrində məlum olan əhəməni vəzifəsi - «çarın gözü» ilə bağlayırlar və «müşahidə edən» kimi tərcümə edirlər. Həmçinin «Pitiaxş» titulunun ilk Sasani şahlarının daşıdığını bildirirlər. Ona bizim eranın III əsrinin kitabələrində də rast gəlinir. Onu lüğətlərdə (məsələn, Mac Kenzi) «çardan sonra ikinci şəxs (vitse-kral)» kimi tərcümə etmişlər, ancaq Zaxariya Ritor isə onu «çarın müavini» (xiparxos) kimi tərcümə edir. Ammian Marsellin vitaxaeni, başqa sözlə, pitaksları süvarilərin rəisi kimi izah edir vəgöstərir ki, onlar İranın böyük vilayətlərini idarə edənlərdir (5, s. 291).

Maraqlıdır ki, burada pitiaxşlar vilayətlərin digər hakimləri - «çarlar» (reges) və satraplardan əvvəl adlandırılıblar.

Həmin institut Gürcüstanda bizim eranın I əsrində qeydə alınmışdır. Q.A.Melikişvili hesab edir ki, o dövrdə dövlət idarəçiliyinin başında spaspet (baş komandan), çardan sonra ikinci şəxs, bütün eristavaların üzərində başçı, eləcə də dövlətin mərkəzi vilayəti olan Şida Kartlinin hakimi dayanırdı. Q.A.Melikişvili Strabona istinadən hesab

edir ki, İberiyada adıçəkilən titulun daşıyıcıları «məhkəmə təşkil edir və ordunu idarə edir» (14, s. 455).

Strabon İberlərdə və albanlarda «ikinci çarın» funksiyalarını müqayisə edir. Onun sözlərinə görə, sonuncularda «bir çar bütün tayfaları idarə edir, o zaman əvvəllər olduğu kimi, hər müxtəlifdilli tayfa öz çarı tərəfindən idarə olunur... Onlarda kahinin vəzifələrini çardan sonra ən hörmətli adamlar yerinə yetirirlər; o, böyük və sıxəhalili vilayətlərin başında durur, eləcə də məbəd adamlarına başçılıq edir» (22, s.477). Albanlarda «ay allahının baş katibi» hərbi aristokratiya içərisindən deyil, kahinlərin içərisindən çıxırdı. İlk alanlarda olduğu kimi hərbi inzibati quruluşlu cəmiyyətdən fərqli olaraq albanlarda başçı digər adamlardan fövqəladə fəxri ada malik idi (22, s. 477).

Armaz kitabələrində sadalanan adların öyrənilməsi göstərdi ki, onların içərisində ən böyük faizi alan (qədim osetin) mənşəli adlar təşkil edir. Bu, ilk növbədə «çar» Xsefarnuqun, pitiaxş Şaraqasın, Asparukun, Zevaxın, eşikağası İodmanqanın və d. Adlarıdır (1, s.86-87). T.Kozırevanın fikrincə, Xsefarnuqun adı xşau - dan (şəfəq saçmaq, parıldamaq) və farnıqdan (xeyirli, faydalı) yaranıb. Şaraqas – (osetin) «sağ-salamat» (hərfi mənada: «salamat başla») mənasındadır. Asparuk, alan hərbi aristokratı Asparın (V əsr) adı kimi spar– «hücum etmək» mənasındadır. Zevax – «tənbəl» - osetin sözü olan zivaq «tənbəllik» mənasına uyğun gəlir. İodmanqan – və (müəyyən artikl) olan od (ruh) və manq (yalançı) mənası verir. Nəticə etibarilə «zəiflik, taqətsizlik» deməkdir (12, s.237-239).

İberiyanın yüksək adlı-sanlı nümayəndələri, o cümlədən çar nəsli arasında alan adlarının mövcudluğu qədim Kartli əhalisinin osetinlərin nəsilləri ilə sıx əlaqələrinin olduğunu göstərir. Antroponimlərdən hansısa bir hissənin əmələ gəlməsini sadəcə alınma söz kimi izah etmək olar. Ancaq İberiya əsilzadələrinin adları içərisində alan antroponimlərinin bu qədər çox olması daha çox irandilli köçəri aristokratiyanın qədim Gürcüstanda yurd salması ilə əlaqələndirilir. Q.A.Melikişvilinin qeyd etdiyinə görə, İberiya «çarları» tərəfindən onların daimi hərbi düşərgələrində iştirak etmək üçün xeyli sayda alanlar cəlb olunurdu. Tədqiqatçının fikrincə, «Onlardan bir çoxu, demək olar ki, əsilzadələr arasına doğru özlərinə uğurlu yol tapa bildilər» (14, s. 355-356).

L.Mrovelinin məlumatlarına görə, «çar» Farsmanı saray sui-qəsdi nəticəsində zəhərləyiblər (18, s.35). F.Qutnov qeyd edir ki, rus dilindəki nəşrdə Farsmanın hakimiyyət dövrü barədə qeyd nəyə görəsə buraxılmışdır (11, s.234).

Q.A.Melikişvili bu faktlara əsasən belə bir nəticəyə gəlmişdir ki, Farsmanın atası çar olmamışdır, onun özü isə hakimiyyətə sui-qəsd nəticəsində gəlmişdir (14, s. 362). F.de Monpere də belə bir nəticəyə gəlmişdir. O, alanların 135-ci ildə Cənubi Qafqaza yürüşləri barədə dəlilləri gözdən keçirərək yazır: «Arrianın (Flaviy) mətninə görə, osetinlər Gürcüstanla yalnız ittifaq bağlamamış, həm də bu çarlığı özlərinə tabe etmişdilər». Lakin Y.Q.Qaqloytinin Arrian Flaviyin, Dion Kassiyin və digər antik müəlliflərin mətnlərini təhlil etməsi de Monperenin ideyalarının şübhəli olmasını üzə çıxarmışdır (4, 1993, №1, s.179-181). Ümumilikdə, Farsman və Xsefarnuqun etnik mənsubiyyətləri, eləcə də onların Kartlidə hakimiyyətə gəlmə şərtləri və şəraitləri barədə suallar mübahisəli olaraq qalır (11).

A.Bosvort və Y.S.Qaqloyti Armaz bilinqvasının daha bir fraqmentinə diqqət yetirirlər. Yunan mətninin ruscaya tərcüməsində bildirilir: «Serafita, Zevaxın, kiçik pitiaxşın qızı, iberlərin böyük çarı Xsefarnuqun epitropu (eşikağası) kimi böyük qələbələr qazanmış pitiaxş Puplikiy Aqrippinin, İodmanqanın oğlunun zövcəsidir. Gənc, 21 yaşında, əvəzsiz gözəlliyə malik olduğu bir vaxtda vəfat etdi» (4, 1993, №1, s. 168).

Alanlara dair bəzi tədqiqatlarda qeyri-ciddi yanaşmalara, saxta, uydurma məlumatlara da rast gəlinir. Bunların içərisində erməni müəlliflərinin «tədqiqatlarında» irəli

sürülən fikirlər daha böyük təəccüb doğurur. Məsələn, onlar V əsr müəllifi Lazar Parpetsiyə istinad edərək alanları erməni Arsuruni sülalələrindən biri ilə eyniləşdirirlər. Ümumiyyətlə, həddindən artıq cəfəng arqumentlərlə alanlaın mənşəyi və s. haqqında elə fikirlər uydururlar ki, böyük anlaşılmazlıq yaranır. Ancaq bir həqiqət bir daha təsdiq olunur ki, ermənilər təkcə azərbaycanlıların deyil gürcülərin də tarixini saxtalaşdırırlar (4, 1992, №2, s. 187-192; 10).

Epitafiyadan gətirilən fraqmentdə pitiaxşların iki nəsli göstərilir. «Serafitanın atası və onun İodmanqan adlı əri pitiaxş titulu daşıyır, ehtimal ki, əhəmənilərdən olan «çarın gözləri» vəzifəsi ilə uyğun gələn mühüm saray vəzifəsini tuturdular». Bildirilir ki, Serapitanın atası latın Publicius Agrippa adını daşıyırdı. O, II Farasmanın pitiaxşı idi və İberiya cəmiyyətinə o qədər inteqrasiya etmişdi ki, sanki anadangəlmə əslən iberiyalı idi (11).

Aqrippinin bu mövqeyə necə gəlib çatmasını aydınlaşdıran F.Qutnov ehtimal edir ki, Aqrippi çar sarayına İberiya və Albaniyanın sərhədlərinə nəzarəti həyata keçirən Arrian tərəfindən yerləşdirilmişdi (11). Tədqiqatçı həmçinin onu da qeyd edir ki, Publikius Aqrippi kifəyt qədər nadir addır. O çətin ki, Roma təbəəliyinə qəbul edilmiş iberiyalıya məxsus ola bilərdi. Mənbələr İberiyanın çar sarayını təmsil edən nümayəndələr arasında yalnız bir romalının adını - Flavius Dadesini qeydə alırlar (11).

Romalıların burada olması ehtimalını Gürcüstanın Mtsxet və Stepantsmind rayonunda müasir hərbi-gürcü yolu üzərində, həmçinin Şimali Osetiyanın Çmi aulunda tapılmış gümüş Roma pulları təsdiq edir (19, s. 30).

M.Blokun verdiyi məlumata görə, çar hakimiyyətinin diniliyi barədə təsəvvürlər xalqların böyük bir hissəsinə xas idi. German tayfalarında hakimiyyətin din ilə münasibətinə toxunan müəllif Tatsitin dəlillərinə diqqət yetirir: «Onlar çarı əsilzadələrdən, daha çox rəşadətli başçılardan seçirlər» (23, c. I. s.356). O, Tatsitin bu ifadəsini Qriqori Turskinin «Frankların tarixi» kitabında dediyi sözlərlə müqayisə edir: «Orada da dairələrdə və vilayətlərdə özlərinə kralları öz birincilərindən, necə deyərlər daha çox əsilzadələrindən seçirlər». Daha sonra, M.Blok belə nəticəyə gəlir ki, əsl qüdrətli hökmdarlar yuxarıda göstərilən nəsillərdən çıxırlar, «yaxud yalnız bu nəsillər ilahi qüvvəyə malikdirlər; xalqlar bu və ya digər hərbi başçıların zəfərlərinin səbəbini heç də onların istedadında yox, məhz bu xüsusiyyətlərində görürdülər». Hesab edilirdi ki, ilahi hakimlər təbiət üzərində müəyyən hakimiyyətə malikdirlər və şeylərin nizamına cavab verirlər. Bəzən, əgər məhsul məhv olurdusa, buna görə hökmdarı günahkar bilir, onu devirirdilər. Ammian Marsellin burqundların tarixindən nümunə gətirərək «kral hakimiyyətinin səmaviliyi barədə təsəvvürlərin klassik vətəni» qədim Misir ənənələri ilə müqayisə etmişdir. Ammian burqundlar barədə yazır: «Onlarda kral - köhnə adətlərə görə əgər onların rəhbərliyi altında müharibədə uğursuzluq baş verərsə və ya torpaqlarında məhsul qıtlığı olarsa öz hakimiyyətlərini itirirlər. Elə misirlilər də bu cür qaydada, belə bədbəxtliklərdə günahı, adətən, öz hökmdarlarının üzərinə qoyurlar». Yalnız din sahəsindəki çevriliş kral hakimiyyətinin müqəddəsliyinə sarsıdıcı zərbə vururdu. Xristianlıq isə onu həqiqi dayaqlarından – yerli bütpərəstlikdən məhrum etmişdir (10).

Ammian Marsellinin bildirdiyinə görə, «onlar (alanlar - D.H.) indi də rəislərini uzun müddət döyüşlərdə fərqlənənlərdən seçirlər» (5, s.494).

Beləliklə, qədim alan tayfalarının mənşəyi, yayıldığı, məskunlaşdığı əraziləri, ictimai quruluşu, əhalinin məişəti, dini inancları və s. bildirən yazılı mənbə məlumatlarını tədqiq etməklə vətənimizin tarixinin mühüm bir problemini - həmçinin qonşu dövlətlər və xalqlarla qarşılıqlı əlaqələrini, xüsusilə Qafqaz Albaniyasının alanlarla qarşılıqlı əlaqəsi probleminin öyrənilməsi mümkündür.

## *ƏDƏBİYYAT*

1.Абаев В.И. ОЯФ. I. Москва-Ленинград, 1949.
2.Абаев В.И. ИЭСОЯ. Т. I. 1989.
3.Аланика. Сведения греко-латинских, византийских, древнерусских и восточных источников об аланах-ясах (Сост. и комм. Ю.С. Гаглойти). Дарьял. 1999, 2000, № 1-4.Аланика. Сведения греко-латинских, византийских, древнерусских и восточных источников об аланах-ясах (Сост. и комм. Ю.С.Гаглойти). Дарьял. 1992 – 1993, № 1-2.
5.Аммиан Марцеллин. Римская история. (Вступ. статья и ред. текста Л.Ю. Лукомского. Комм. Ю. Кулаковского). СПб. 1994.
6.Артамонов М.И. История Хазар. Ленинград, 1962.
7.Блок М. Короли-чудотворцы. Москва, 1998.
8.Гадло А.В. Этническая история Северного Кавказа IV-X вв. Ленинград, 1979.
9.Гутнов Ф.Х. Аристократия алан. Владикавказ. 1995.
10.Гутнов Ф.Х. Ранние аланы в Загавказских источниках Владикавказ. 2006.
11.Гутнов Ф.Х. Ранние аланы. Проблемы этносоциальной истории. Владикавказ. 2001.
12.Козырева Т.З. Осетинская антропонимия древнего и средневекового периода. Ономастика Кавказа. Махачкала. 1976.
13.Масуди. Мурудж аз-захаб (Луга золота и рудники драгоценных камней). Перевод Н.А.Караулова, СМОМПК, вып. XXXIX. Тбилиси, 1908, с. 29-78.
14.Меликишвили Г.А. К истории древней Грузии. Тбилиси. 1959.
15.Миллер В.Ф. Осетинские этюды. Т. III. Москва, 1887.
16.Moisey Kalankatuklu. Albaniya tarixi (tərcümə Z.M.Bünyadovundur). Bakı, 1993.
17..Моисей Хоренский. История Армения (Пер. Н. Эмина). СПб. 1858.
18.Мровели Л. Жизнь картлийских царей (Пер., предисл. и комм. Г.В.Цулая). Москва, 1979.
19.Пахомов Е.А. Монетные клады, вып. III. Баку, Издатество АН Азерб. ССР, 1940.
20.Перевалов С. М. Военное дело у аланов II в. н. э. (по трактатам Флавия Арриана «Диспозиция против аланов» и «Тактика») //Историко-археологический альманах. Вып. 2, 1997.
21.Ибн Руста. Китаб ал-алак ан-нафис (Книга драгаценных камней). Перевод Н.А.Караулова, СМОМПК вып. XXXII. Тифлис, 1903, с.35-54.
22.Страбон. География . (Пер., статья и комм. Г.А.Стратановского). Ленинград., 1964.
23.Тацит Корнелий. Соч. в 2-х томах. Ленинград, 1968.
24.Тревер К.В. Очерки по истории и культуре Кавказской Албании X в. до н. э. - VII в. н. э. Москва-Ленинград, 1959.
25.Церетели Г.В. Армазская билингва. Тбилиси, 1941.

**ДИЛЯРА ГАДЖИЕВА**
***диссертант Азербайджанского музея истории АН***

## ПИСЬМЕННЫЕ ИСТОЧНИКИ ОБ АЛАНАХ

В письменных источниках даются интересные сведения об аланах. Аланы появились с 1 века до н.э по 1 век н.э на территории современной Украины, а позже они распространились к востоку.

Письменные сведения о кавказских аланах, в частности аланах, проживающих на Южном Кавказе, имеют большое значение в изучении происхождения, ареоле распространения и взаиммоотношения их с соседними народами и государствами. Исследование территории распространения аланов позволяет изучить народы, проживающие на севере Азербайджана (Албания и Атропатена), а так же сходство и различие их государств, процессы интенсивного развития.

**DILARA HAJIYEVA**
***Defendor of Husis of Azerbaijan Museum Of History***

**THE WRITTEN SOURCES ABOUT ALANS**

In the written sources are given interesting information about Alans. Alans have appeared since I century Bc up to I century Ad on territories of modern UkraineWritten information about Caucasian Alans, in particular allans, living in the Southern Caucasus are of great significance in stadying. He origin, arial dissemination and relations with neigtboring peoples and nations (states). Recearch of territory of alans distribution allows to study people living in the North of Azerbaijan (Albania and Atropatena) and also sinularity and distraction of their states, processes of intensive development.

***Rəyçilər: AMEA-nın müxbir üzvü İ.Babayev, t.e.d.Q.Ə.Əliyev.***
***Azərbaycan MEA «Azərbaycan tarixi» muzeyinin 26 yanvar 2009-ci il tarixli iclasının qərarı ilə çapa məsləhət görülmüşdür. (protokol №01).***